# *Yakub ASLAN:* "Çin ilə əlaqələrin inkişafı Azərbaycan üçün siyasi zəmanət qazandırır"

Azərbaycan Prezidenti İlham Əliyevin Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Sammitində iştirak etmək üçün Çinə səfəri zamanı qarşılanması mərasimi rəsmi Bakının "Qlobal Cənubdakı" yerinin və rolunun böyük əhəmiyyətə malik olduğunu göstərir. Azərbaycanın həyata keçirdiyi praqmatik xarici siyasət kursu və iqtisadi mahiyyət daşıyan infrastruktur layihələri onun artıq regional deyil qlobal xarakterli proseslərdə iştirakını təmin edib.



Bu fikri AZƏRTAC-a açıqlamasında CGTN (China Global Television Network Turk) kanalının siyasi şərhçisi Yakub Aslan bildirib.

O diqqətə çatdırıb ki, hazırkı dövrdə Qərb ilə Şərqin kəsişməsində yerləşdiyinə görə hər iki qitənin dövlətlərinin Azərbaycana ehtiyacı var. Prezident İlham Əliyev bu reallığı yüksək qiymətləndirərək Azərbaycanı iqtisadi və siyasi baxımdan həmin dövlətlərin etibarlı tərəfdaşına çevirə bilib. Azərbaycan qurduğu infrastruktur layihələri hesabına iqtisadi dividendlərlə yanaşı, siyasi zəmanət də əldə edib.

Yakub Aslanın fikrincə, Bakı-Tbilisi-Qars, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu və Zəngəzur dəhlizinin reallığa çevrilməsi Azərbaycana olan marağı daha da artırıb. Ötən il Trans-Xəzər marşrutu ilə 4,5 milyon ton yük daşınıb ki, bu da əvvəlki illərə müqayisədə 62 faiz artım deməkdir. Mərkəzi Asiya və Çin yaxın illərdə yükdaşımanın həcmini 10 milyon tona çatdırmağı planlaşdırıblar ki, bu da Cənub-Şərqi Asiyanın digər dövlətlərinin də Avropa ilə ticarət əlaqələrinin məhz bu marşrutla davam etdirmək istəyindən irəli gəlir.

Siyasi şərhçi bildirib ki, Çin bu gün dünya iqtisadiyyatında dominant gücə çevrilmək potensialına malikdir. Çin şirkətləri təkcə ŞƏT-ə üzv dövlətlərdə 3 mindən çox müəssisə yaradaraq 200 mindən artıq iş yeri açıb. Ötən il Çin ilə təşkilata üzv ölkələr arasında ticarət dövriyyəsi 512,4 milyard dollara çatıb ki, bu da 2023-cü illə müqayisədə 2,7 faiz çoxdur. Bütün bunlar göstərir ki, Çin investisiyaları Azərbaycandan da yan keçmir. Prezident İlham Əliyevin səfər çərçivəsində Çinin "Powerchina group" şirkətlər qrupunun icraçı vitse-prezidenti, "CCCC" şirkətinin sədri, "CETC" korporasiyasının baş direktoru, "China Energy Engineering Corporation Limited" şirkətinin rəhbəri ilə görüşləri onu deməyə əsas verir ki, bu şirkətlər yaxın gələcəkdə Azərbaycanın nəqliyyat-tranzit, energetika və başqa sahələrinə irihəcmli sərmayə yatıracaqlar.

Yakub Aslan qeyd edib ki, Sammitdə ŞƏT-in 2035-ci ilə kimi inkişaf strategiyası haqqında sənədin imzalanması perspektivdə üzv ölkələrin iqtisadi inkişafının yeni mərhələsinə qədəm qoyacağından xəbər verir.

"Prezident İlham Əliyevin ŞƏT Sammitində iştirak üçün Çinə səfəri Azərbaycan üçün çox uğurla başa çatıb. Məsələnin mahiyyəti ondan ibarətdir ki, Çin ilə əlaqələrin inkişafı yalnız iqtisadi dividend deyil, həm də Azərbaycan üçün siyasi zəmanət qazandırır", - deyə siyasi şərhçi vurğulayıb.

Azərbaycan.- 2025.- 5 sentyabr (№ 188).- S.4.